UOT 327

AKİF MARİFLİ
Tarix üzrə fəlsəfə doktoru,
Özbəkistandakı H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi
akif.marifli@gmail.com

ANTİTERROR ƏMƏKDAŞLIĞININ QLOBAL ÇƏRÇİVƏSİ: KOALİSİYA İNSTİTUTLARININ İNKİŞAF DİNAMİKASI VƏ ƏSAS FUNKSİYALARI

DOI: https://doi.org/10.36719/2708-065X/111/140-150

Məqalədə Yaxın Şərqdəki terrorizm və terrorçu qrupların fəaliyyəti təhlil edilir, bu strateji əhəmiyyətli bölgədə Qlobal Koalisiyanın yaradılmasının zəruriliyi vurğulanır. Qeyd olunur ki, terrorizm bütün dövlətlərə təsir edən transmilli təhlükə yaradır. Həmçinin terror aktlarına qarşı beynəlxalq əməkdaşlığa və dövlətlərarası koalisiya mexanizmlərinə xüsusi diqqət yetirilir. ABŞ-ın rəhbərlik etdiyi Qlobal Koalisiyanın Suriya və İraqdakı hadisələr kontekstində rolu, eləcə də Qərb ölkələrinin əsas regional aktyorlar - Rusiya və Türkiyə ilə qarşılıqlı əlaqəsi araşdırılır. Qeyd edilir ki, İŞİD-in mövqeyinin əhəmiyyətli dərəcədə zəifləməsinə və ərazisinin əhəmiyyətli bir hissəsi üzərində nəzarəti itirməsinə baxmayaraq, qrupun gizli özəkləri fəaliyyətini davam etdirir. Bu, beynəlxalq terrorizmlə mübarizə aparmaq üçün millətlərarası koalisiyanın saxlanmasının hərbi, siyasi və lojistik zəruriliyini təsdiqləyir.

Açar sözlər: terror, koalisiya, təşkilat, beynəlxalq, antiterror, kəşfiyyat, ekstremizm.

Giriş. Beynəlxalq təhlükəsizlik bütün dövlətlər tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına əsaslanan beynəlxalq münasibətlər sisteminin ayrılmaz tərkib hissəsidir. Terrorizm problemi istisnasız olaraq bütün ölkələrə bilavasitə və ya dolayı təsir göstərməkdədir. Bu amil dövlətləri səylərini birləşdirməyə və mövcud təhdidin aradan qaldırılması üçün ən effektiv mexanizmləri axtarmağa vadar edir. Son onilliklərdə dünya ictimaiyyəti terrorçu təşkilatların fəaliyyət miqyasının genişlənməsi və onların dağıdıcı nəticələrinin artması ilə bağlı ciddi narahatlıq ifadə edir.

Əsas hissə. Beynəlxalq əməkdaşlıq terrorizmə qarşı mübarizədə vahid strategiyanın hazırlanması, kəşfiyyat və digər ixtisaslaşdırılmış məlumatların mübadiləsi üçün zəruri olan antiterror fəaliyyətinin əsas komponentlərindən biridir. Terrorizmin müxtəlif regionlarda spesifik xüsusiyyətlərə malik olması normativ-hüquqi və strateji yanaşmaların yerli şəraitlərə adaptasiya edilməsini tələb edir. Beynəlxalq terrorizm dövlətləri bu təhdidə qarşı birgə mübarizə aparmağa məcbur edir.

Qeyd edilməlidir ki, müasir dünyada terrorizm qlobal fenomen kimi formalaşmışdır. Bu şəraitdə dövlətlər terrorçu strukturlara qarşı vahid cəbhə şəklində fəaliyyət göstərməyə, bu istiqamətdə birbirlərini hərtərəfli dəstəkləməyə, həmçinin terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericiliklərini təkmilləşdirməyə məcburdurlar.

Antiterror fəaliyyətinin əsas istiqamətlərindən biri beynəlxalq hüquq normalarının inkişaf etdirilməsi ilə bağlıdır. Bu günədək Birləşmiş Millətlər Təşkilatının və onun ixtisaslaşmış qurumlarının təşəbbüsü ilə terrorizmə qarşı mübarizəyə həsr edilmiş və dünyanın bütün dövlətlərinin qoşulması üçün açıq olan 16 beynəlxalq müqavilə (11 konvensiya və 5 protokol) hazırlanmışdır. Bunlara aşağıdakılar daxildir:

1. 1963-cü il Tokio Konvensiyası;
2. 1970-ci il Haaqa Konvensiyası - mülki aviasiya təyyarələrinin qanunsuz ələ keçirilməsinin qarşısının alınmasına dair;
3. 1971-ci il Mülki Aviasiya Təhlükəsizliyinə Qarşı Qanunsuz Əməllərlə Mübarizə Konvensiyası;
4. 1973-cü il Diplomatik agentlərə və beynəlxalq mühafizə altında olan şəxslərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya;
5. 1979-cu il Girov Götürməyə Qarşı Beynəlxalq Konvensiya;
6. 1980-ci il Nüvə Materiallarının Fiziki Mühafizəsi Haqqında Konvensiya;

7. 1988-ci il Dəniz Nəqliyyatının Təhlükəsizliyinə Qarşı Qanunsuz Əməllərin Qarşısının Alınması Konvensiyası;

8. 1991-ci il Plastik Partlayıcı Maddələrin Markalanması Haqqında Konvensiya;

9. 1997-ci il Terrorizmə Qarşı Mübarizə üzrə Beynəlxalq Konvensiya;

10. 1999-cu il Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması Haqqında Beynəlxalq Konvensiya;

11. 2005-ci il Nüvə Terrorçuluğu Aktlarının Qarşısının Alınması üzrə Beynəlxalq Konvensiya.

Konvensiyaların hazırlanması ilə yanaşı, BMT terrorizmə qarşı mübarizədə strateji prinsiplərin müəyyən edilməsinə də xüsusi diqqət yetirir. Bu məqsədlə 1994-cü ildə BMT Baş Assambleyası A/RES/49/60 saylı qətnamə ilə "Terrorizmin Aradan Qaldırılması Tədbirləri Haqqında Bəyannamə"ni qəbul etmişdir. Həmin sənəd dünya dövlətlərini terror aktlarının qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması istiqamətində bütün mümkün tədbirləri görməyə çağırır və terrorizmə dair müxtəlif beynəlxalq-hüquqi sənədlərin əsas müddəalarını ümumiləşdirir.

2006-cı ildə BMT-nin Terrorizmə Qarşı Mübarizə üzrə Qlobal Strategiyasının qəbul edilməsi mühüm hadisə olmuş və bu sənəd hazırda terrorizmə qarşı mübarizənin əsas beynəlxalq-hüquqi çərçivəsi kimi tanınır. Strategiya bir sıra qətnamələrdən və Fəaliyyət Planından ibarətdir. Bundan başqa, terrorizmin qarşısının alınmasına dair müxtəlif beynəlxalq forumlar tərəfindən qəbul edilmiş çoxsaylı regional konvensiyalar və yekun sənədlər mövcuddur. Bunlara aşağıdakılar daxildir:

- 1987-ci il SAARC Terrorizmin Qarşısının Alınması üzrə Regional Konvensiyası;
- 1997-ci il Terrorçu Partlayışlara Qarşı Mübarizə üzrə Avropa Konvensiyası;
- 1999-cu il Afrika İttifaqının Terrorizmə Qarşı Mübarizə Konvensiyası;
- 1999-cu il MDB Dövlətlərinin Terrorizmə Qarşı Mübarizə Haqqında Sazişi;
- 2001-ci il Şanxay Konvensiyası - terrorizm, separatizm və ekstremizmə qarşı mübarizə haqqında;
- 2006-cı il Avropa Şurasının Terrorizmə Qarşı Mübarizə Konvensiyası;
- 2005-ci il Avropa Şurasının Terrorizmin Maliyyələşdirilməsinə Qarşı Mübarizə Konvensiyası.

Beləliklə, mövcud konvensiyalar və digər beynəlxalq-hüquqi sənədlər terrorizmə qarşı mübarizənin bütün əsas istiqamətlərini əhatə edir. Hazırkı dövrdə antiterror fəaliyyətinin beynəlxalq-hüquqi bazası dövlətlərin fəaliyyətinin koordinasiyasına imkan verən kifayət qədər strukturlaşdırılmış çərçivə təqdim edir. Bununla belə, beynəlxalq konvensiyaların qəbul olunması terrorizmin aradan qaldırılması üçün kifayət deyil; hüquqi normalar yalnız həyata keçirilməsi gərəkən real tədbirlərin və strateji yanaşmaların əsasını təşkil edir.

Terrorizmə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri xüsusi ixtisaslaşmış beynəlxalq qurumların fəaliyyətinin yaradılması və dəstəklənməsidir. Bu qurumlardan ən mühümlərindən biri – BMT-nin Terrorizmə Qarşı Mübarizə Komitəsi (CTC)dir. Komitə 2001-ci ildə 1373 saylı qətnaməyə əsasən yaradılmışdır. Komitənin əsas məqsədləri bunlardır:

1. Terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması;
2. Terror aktları ilə məşğul olan şəxslərlə bağlı maliyyə vəsaitlərinin bloklanması;
3. Terrorçu qruplara hər hansı formada maliyyə yardımının göstərilməsinin qarşısının alınması;
4. Terrorçulara sığınacaq, yardım və dəstək verilməsinin qarşısının alınması;
5. Terror aktlarını planlaşdıran və ya həyata keçirmək istəyən qruplar barədə məlumat mübadiləsinin təmin edilməsi;
6. Terror əməllərində şübhəli şəxslərin istintaqı, müəyyən edilməsi, saxlanılması, ekstradisiyası və təqibində digər dövlətlərlə əməkdaşlıq.

Terrorizmə qarşı mübarizənin əsas istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayan qurumlardan biri də dünya iqtisadiyyatının təxminən 65 faizini təmsil edən və Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Rusiya, Böyük Britaniya və ABŞ-dan ibarət Böyük Səkkizlik (G8) qrupudur. G8-in bu sahədə əsas sənədi 2006-cı il 16 iyul tarixli Sankt-Peterburq Sammitinin "Terrorizmə Qarşı Mübarizə Deklarasiyası"dır. Sənəddə beynəlxalq və milli antiterror qanunvericiliyinin təkmilləşdirilməsi, enerji və nüvə obyektlərinə hücumların qarşısının alınması, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi, habelə vətəndaş cəmiyyəti ilə dialoqun inkişaf etdirilməsi prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

Hazırda antiterror fəaliyyətinin əsas subyektlərindən biri - Interpoldur. 2018-ci il məlumatlarına görə təşkilatın 194 üzv dövləti mövcuddur. Interpol 1946-cı ildə təsis edilmişdir (27) və o, 1923–1938-ci illər ərzində fəaliyyət göstərmiş Beynəlxalq Cinayət Polisi Komissiyasını (International Criminal Police Commission) əvəz etmişdir.

Antiterror fəaliyyəti Müstəqil Dövlətlər Birliyinin (MDB) prioritet istiqamətlərindən biri hesab olunur. Terrorizmin qarşısının alınması məqsədilə 2000-ci il 21 iyunda MDB Dövlət Başçıları Şurası tərəfindən Antiterror Mərkəzi yaradılmışdır. Antiterror Mərkəzi MDB-nin daimi ixtisaslaşmış orqanı kimi çıxış edərək, üzv dövlətlərin beynəlxalq terrorizm və ekstremizmin digər formalarına qarşı mübarizədə koordinasiya və qarşılıqlı əməkdaşlığını təmin edir. Mərkəzin hüquqi statusu, əsas vəzifələri, funksiyaları, struktur komponentləri və təşkilati əsasları MDB Dövlət Başçıları Şurasının 1 dekabr 2000-ci il tarixli qərarı ilə təsdiqlənmiş "MDB Terrorizmə Qarşı Mübarizə Mərkəzi haqqında Nizamnamə" ilə tənzimlənir (5).

Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində demək olar ki, bütün dünya dövlətləri terrorizmə qarşı mübarizə üçün məsul milli qurumlarını formalaşdırmışlar. Bu səbəbdən, müasir dövrdə beynəlxalq terrorizmə qarşı mübarizə vahid hüquqi normaların hazırlanması, onların milli qanunvericiliklə uzlaşdırılması və dövlətlərin birgə səylərinin koordinasiyası kontekstində həyata keçirilir. Artıq antiterror sisteminin əsas institusional çərçivəsi formalaşdığından, beynəlxalq hüquq normalarının və beynəlxalq təşkilatların səmərəli fəaliyyətinin təmin edilməsi xüsusi aktuallıq kəsb edir.

Bununla yanaşı, terrorizmə qarşı mübarizədə ikitərəfli münasibətlərin də mühüm rolu vardır. Dövlətlərarası əməkdaşlığın tipik nümunələrindən biri Asiya regionundan, xüsusilə də Əfqanıstandan qaynaqlanan terror təhlükələrinə qarşı Rusiya–ABŞ və Rusiya–Hindistan işçi qruplarının fəaliyyəti ola bilər (65). Rusiya və Hindistan bu sahədə hərbi-texniki əməkdaşlıq qurmuş və Hindistana S-400 "Triumf" hava müdafiə raket sistemlərinin təchizatına dair müqavilə imzalamışdır (18).

ABŞ Suriya ilə bağlı məsələlərə ilk gündən həssas yanaşmış və bu istiqamətdə Rusiya ilə əməkdaşlığa üstünlük vermişdir. Həmin dövrdə Pentaqonun mətbuat katibi, polkovnik-leytenant Mişel Baldanza ABŞ hərbçilərinin Rusiya ilə bu əməkdaşlıqda maraqlı olduqlarını bəyan etmişdir. "Bu, Suriya hava məkanından istifadə edən bütün tərəflərin qəzalar və potensial fövqəladə hallardan qorunması və onların qarşısının alınması baxımından son dərəcə faydalıdır. Ümid edirik ki, Rusiya Müdafiə Nazirliyi də bu əməkdaşlıqda maraqlıdır", — deyə Baldanza qeyd etmişdir.

Qeyd etmək lazımdır ki, son illərdə aparıcı Qərb dövlətləri ekstremizm və terrorizmə qarşı mübarizə sahəsində bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalamışdır.

İSİD (Daesh) təhdidi və beynəlxalq hərbi-siyasi əməkdaşlıq. Müasir dövrdə beynəlxalq antiterror koalisiyasının fəaliyyət istiqamətlərində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Qərb ölkələri, Rusiya və digər dövlətlərin diqqət mərkəzində ISİD terror qruplaşmasının yaratdığı təhlükə dayanır (30). Hadisələrin gedişi bu təhlükənin real xarakter daşıdığını təsdiq edir. İraqdan Suriyaya keçid edən, geniş silahlanmış ISİD döyüşçüləri əldə etdikləri taktiki üstünlüyün təsiri ilə Deyr-ez-Zor ətrafında tam nəzarəti ələ keçirmişlər.

2014-cü ilin yanvar–mart aylarında Suriya hökumət qüvvələri ilə toqquşmalar, həmçinin həmin ilin martında ABŞ-ın Suriyanın şərqində ISİD-ə qarşı endirdiyi son zərbə nəticəsində terror qruplaşması ölkə ərazilərinin təxminən yarısından geri çəkilsə də, çox qısa müddətdə əlavə canlı qüvvə, maliyyə və silah ehtiyatları hesabına mövqelərini möhkəmləndirərək, iyul ayında yenidən genişmiqyaslı əməliyyatlara başlamış və Suriyanın daha böyük ərazilərinə nəzarəti ələ keçirmişdir (28). Lakin bu proses uzun sürməmişdir. ISİD-ə qarşı beynəlxalq əməkdaşlıq çərçivəsində beynəlxalq koalisiya formalaşdırılmışdır.

2014-cü il 5 sentyabrda Barak Obama ABŞ-ın Suriya və İraqdakı ISİD fəaliyyətinə qarşı reaksiyasının gücləndirildiyini elan etmiş və təşkilatın məhv edilməsi məqsədilə azı doqquz müttəfiq dövləti bir araya gətirdiyini bildirmişdir. Bundan əlavə, Obama on il əvvəl prezident Corc Buş tərəfindən hazırlanmış antiterror strategiyasını və hərbi əməliyyat konsepsiyalarını koalisiya tərəfdaşlarına təqdim etmişdir. Obama geniş məzmuna malik çıxışında ABŞ və müttəfiqlərinin ISİD-in necə məhv edilə biləcəyi barədə danışaraq, hədəflərə nail olmaq üçün Amerika hava zərbələrinin əsas vasitə olacağını vurğulamışdır. O, ISİD tərəfindən zəbt edilmiş ərazilərin geri alınması üçün "mötədil" suriyalı müxalifət qruplarının dəstəklənməsinin, habelə region dövlətləri ilə əməkdaşlığın gücləndirilməsinin zəruri-

liyini qeyd etmişdir (12). Koalisiya ilkin mərhələdə İraqın quru qoşunlarına hərbi yardım, təlim bazalarının yaradılması və hərbi məsləhətçilərin göndərilməsi ilə dəstək vermiş, ABŞ-ın hava zərbələri nəticəsində kürd və iraq qüvvələri Mosul su anbarı üzərində nəzarəti bərpa etmişdir.

2014-cü il 10 sentyabrda Obama ABŞ-ın Suriya ərazisində hava əməliyyatlarına başlayacağını elan etmişdir (36). Bu koalisiyanın yaradılması Obama üçün xüsusi siyasi əhəmiyyət daşıyırdı. Çünki o, İraq müharibəsinə qarşı çıxmış prezident kimi beynəlxalq arenada tək görünmək istəmirdi və Yaxın Şərq strategiyasının əsas özəlliklərindən biri müttəfiqləri vahid platformada toplamaq idi.

ABŞ dövlət katibi Con Kerri 2014-cü il 4–5 sentyabr tarixlərində NATO-nun Uels sammiti çərçivəsində Avstraliya, Kanada, Danimarka, Fransa, Almaniya, İtaliya, Türkiyə və Böyük Britaniya nümayəndələri ilə görüşərək (34), onları ISİD-ə qarşı hərbi və maliyyə dəstəyi göstərməyə çağırmışdır (35). Dövlət katibi Con Kerri və ABŞ müdafiə naziri Çak Heygəlin bəyanatlarına görə, doqquz dövlət İraq və Suriyada ISİD-ə qarşı koalisiya qüvvələrinə silah və hava dəstəyi verməyi öhdələrinə götürmüşdür (66).

2014-cü ilin oktyabrında Türkiyə və kürd qüvvələri arasında vasitəçi rolunu oynayan, hər iki tərəflə müttəfiq sayılan ABŞ hərbi kontingenti müəyyən müddət geri çəkilmiş, lakin ISİD-in sürətlə genişlənməsi fonunda ABŞ bölgədəki geosiyasi vəziyyəti diqqətdən kənarda qoya bilməmiş, Suriya Demokratik Qüvvələri (SDQ) ilə əməkdaşlığı gücləndirərək ISİD-ə qarşı birgə əməliyyatlarda fəal iştirakını davam etdirmişdir.

ABŞ rəsmiləri ölkənin Suriyadan tam şəkildə çıxarılmasını elan etsələr də, əslində Amerika qüvvələri yalnız şərq istiqamətinə doğru mövqelərini dəyişmiş, kurdların nəzarətində olan ərazilərdəki neft yataqlarını və strateji məntəqələri qorumağa yönəlmiş fəaliyyətlərini davam etdirmişlər. Bu fakt bir daha göstərir ki, ABŞ-ın Suriyadakı fəaliyyəti yalnız İŞİD-ə qarşı mübarizə ilə məhdudlaşmır; o, həm də regiondakı enerji resurslarına nəzarət və geosiyasi təsir dairəsinin genişləndirilməsi ilə sıx bağlıdır.

Bu kontekstdə Donald Tramp belə bəyanat vermişdir: "Biz neft yataqlarına nəzarəti saxlamaq istəyirik və bu məsələ üzrə kurdlarla danışıqlar aparacağıq." Bu bəyanat beynəlxalq siyasi analitiklər tərəfindən enerji resursları və hərbi strategiyanın qarşılıqlı əlaqəsini göstərən mühüm nümunə kimi qiymətləndirilmişdir. Xüsusilə Suriyadakı vəziyyət və kurd qüvvələri ilə əməkdaşlıq regionda stabillik, təhlükəsizlik və terrorizmə qarşı mübarizə strategiyalarının formalaşmasına təsir edən mühüm amil hesab olunur.

Eyni zamanda, bu proses beynəlxalq hüquq və milli suverenitetlə bağlı mürəkkəb məsələləri gündəmə gətirir. ABŞ-ın Suriya ərazisində apardığı hərbi fəaliyyət və kurdlarla strateji ittifaqı region ölkələri arasında qüvvələr balansına, geosiyasi rəqabətə və qlobal antiterror koalisiyasının fəaliyyət mexanizmlərinə dair əhəmiyyətli təhlil obyektinə çevrilmişdir. Bu hal həmçinin beynəlxalq antiterror strategiyalarının effektivliyi, resursların bölüşdürülməsi və hərbi koalisiyaların səmərəli işləməsinin şərtlərini araşdırmaq üçün geniş imkan yaradır (52).

Rusiya Federasiyasının Müdafiə Nazirliyi isə ABŞ-ın Suriyadakı mövqelərinin dəyişdirilməsi ilə bağlı addımlarını ciddi narahatlıq doğuran faktor kimi qiymətləndirmişdir. Nazirliyin rəsmi açıqlamasında bildirilir: "Vaşinqtonun bu addımı Suriyanın şərqindəki neft yataqlarının ələ keçirilməsi və həmin ərazilərdə silahlı nəzarətin təmin olunması məqsədi daşıyır və bu, beynəlxalq dövlət quldurluğunun yeni formasıdır".

Bu bəyanat beynəlxalq siyasət və geosiyasi analiz baxımından bir neçə mühüm məqamı ortaya qoyur:

- enerji resurslarının hərbi vasitələrlə ələ keçirilməsi və idarə olunması beynəlxalq münaqişələrin əsas determinantlarından biri kimi çıxış edir;
- bu proses regional aktorlar və müttəfiqlər arasında etimadsızlıq mühiti və geosiyasi gərginlik yaradır;
- beynəlxalq hüquq normalarının tətbiqi, milli suverenliyin qorunması və antiterror əməliyyatlarının hüquqi çərçivədə tənzimlənməsi daha da mürəkkəbləşir.

Bu kontekstdə Rusiya Müdafiə Nazirliyinin mövqeyi ABŞ-ın Suriya siyasətinə yönəlik geosiyasi tənqid və enerji resurslarının hərbi-strateji əhəmiyyətini vurğulayan nümunə kimi dəyərləndirilə bilər. Beləliklə, müasir beynəlxalq təhlükəsizlik siyasətində hərbi əməliyyatların siyasi, iqtisadi və hüquqi aspektləri bir-biri ilə sıx bağlı şəkildə təzahür edir (62).

İŞİD-ə qarşı beynəlxalq hərbi-siyasi fəaliyyət. 2014-cü ilin iyulunda Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun məlumatına əsasən, İran İraqa "Su-25" tipli qırıcı təyyarələr göndərmiş, Hizbullah isə İŞİD-in fəaliyyətini izləmək məqsədilə təlimatçı və hərbi müşavirlər yerləşdirmişdir. 2014-cü ilin avqustunda ABŞ və İran ayrı-ayrılıqda İraqda İŞİD hədəflərinə qarşı hava hücumları kampaniyasına başlamışdır. Qısa müddət ərzində ABŞ-ın rəhbərlik etdiyi koalisiyaya qoşulan ölkələrin sayı on dördə çatmış və bu dövlətlər İraq və Suriya ərazilərində İŞİD-ə qarşı çoxsaylı hava zərbələri endirmişlər. 2015-ci ilin sentyabrında Rusiya qüvvələri Suriya hökumətinin rəsmi dəvəti ilə İŞİD, "Ən-Nusra Cəbhəsi" və "Azad Suriya Ordusu"na qarşı minlərlə bombardman əməliyyatı həyata keçirmişdir (53).

2015-ci ilin sentyabr ayının sonunda Rusiya, İran, İraq və Suriya Bağdadda "Yaxın Şərqdə mövcud vəziyyətə dair məlumatların toplanması, müzakirəsi və təhlili, eləcə də ilk növbədə İŞİD-ə qarşı mübarizə məqsədilə" birgə informasiya mərkəzi təsis etmişlər (44). 30 sentyabr 2015-ci ildə Rusiya, Dəməşqin rəsmi müraciəti əsasında Suriyada hərbi əməliyyatlara başlamış və müxalifət qüvvələrinin nəzarətində olan əraziləri intensiv şəkildə bombardman etmişdir (2, 14, 42, 47).

Rusiya əməliyyatları İordaniya və İsraillə koordinasiya məsələlərini də gündəmə gətirmişdir. 18 sentyabr 2015-ci ildə Sergey Lavrov Ammanda rəsmi səfərdə olarkən, Rusiya və İordaniyanın Suriyada hərbi əməliyyatların koordinasiyasına dair "xüsusi iş mexanizmi" barədə razılıq əldə etdiyini bildirmişdir. Lavrov əlavə etmişdir ki, antiterror fəaliyyətində iştirak edən digər ölkələr də bu mexanizmə qoşula bilərlər (45). 19 sentyabr 2015-ci il tarixində İsrailin Baş naziri Benyamin Netanyahu Moskvada keçirdiyi görüşdə İsrail Müdafiə Qüvvələri ilə Rusiya qüvvələri arasında əməliyyatlar zamanı "təsadüfi toqquşmaların qarşısının alınması" məqsədilə koordinasiya mexanizminə dəstək verəcəyini açıqlamışdır (58).

2015-ci ilin oktyabr ayında "Jane's" hərbi jurnalı Rusiyanın Suriyadakı əməliyyatları üçün gündəlik təxmini xərclərin 2,4–4 milyon ABŞ dolları təşkil etdiyini müəyyən etmişdir. Bu məbləğ silahlar, raketlər, təyyarələr, texniki xidmət, şəxsi heyət və digər xərc maddələrini əhatə edirdi. Məlumatlara əsasən, Rusiya hərbi təyyarəsinin bir saatlıq uçuşu 12 min dollara başa gəlirdi; Xmeymim bazasında xidmət göstərən rus zabitlərinə aylıq ödəniş və təminat xərcləri isə təxminən 440 min dollar təşkil edirdi. Hərbi gəmilərdən buraxılan raketlərin qiyməti isə 1,2 milyon dollar olaraq dəyərləndirilirdi (74). Hava zərbələrinin başlanmasından bir neçə ay sonra İŞİD həm İraqda, həm də Suriyada işğal etdiyi ərazilərin böyük hissəsini itirməyə başlamışdır (40). Lakin hava əməliyyatları nəticəsində mülki itkilərin sayı 2015–2016-cı illərdə ciddi şəkildə artmışdır (6). 2016-cı ilin ortalarında ABŞ və Rusiya hava əməliyyatlarının birgə koordinasiyasını planlaşdırmış, lakin bu təşəbbüs gözlənilən nəticəni verməmişdir (33,41,43). 2016-cı il 14 mart tarixində prezident Vladimir Putin Suriyada təhlükəsizliyin müəyyən qədər təmin olunması və sülh prosesinin irəliləməsini əsas gətirərək Rusiya qüvvələrinin bir qisminin ölkədən çıxarılacağını elan etmişdir (15). 2017-ci ilin dekabrına qədər İŞİD İraq ərazisindəki nəzarətini tamamilə itirmiş, Suriyada isə təxminən 5% ərazi üzərində nəzarəti saxlamaqda davam etmişdir (31). 10 dekabr 2017-ci ildə Putin Rusiya qoşunlarının Suriyadan çıxarılması barədə fərman imzalamış, lakin prosesin tam şəkildə vəziyyətin sabitliyindən asılı olacağını bildirmişdir (29). Qeyd edilməlidir ki, 2015-ci ildə Rusiya Suriyaya müdaxilə etməzdən əvvəl prezident Bəşər Əsəd ölkə ərazisinin yalnız yarısı üzərində çətinliklə nəzarət edirdi; isyançılar, cihadçılar və kurd qüvvələri isə ərazilərin böyük qismini ələ keçirmişdi. Lakin Rusiya dəstəyi ilə Suriya hökuməti itirilmiş ərazilərin böyük hissəsini bərpa etməyə nail olmuşdur. 2017-ci il 9 dekabrda İraq hökuməti İŞİD-ə qarşı qələbə qazandığını və ölkədə müharibənin başa çatdığını elan etmişdir (23, 24). 2019-cu il 23 mart tarixində isə İŞİD Baguz Fovqani döyüşündə məğlub edildikdən sonra Suriyada da tam şəkildə məhv edilmişdir (26).

Türkiyənin mövqeyi və hərbi əməliyyatlarının konteksti. Məlum olduğu kimi, Türkiyə İŞİD qruplaşmalarının məhv edilməsinə yaxından yardım göstərmişdir. 2011-ci ildə "Ərəb baharı" başlandıqda və Suriya daxilində genişmiqyaslı etirazlar yayıldıqda, ölkənin kurd əhalisinin böyük hissəsi Dəməşq və Hələb kimi böyük şəhərlərdə, həmçinin Türkiyə ilə sərhədyanı Afrin (qərb), Kobani (mərkəz) və Qamışlı (şərq) bölgələrində yaşayırdı. PKK-nın bu ərazilərdə möhkəmlənməsi və gələcəkdə Türkiyə üçün terror təhlükəsi yaratması Ankaranın milli təhlükəsizlik strategiyasının əsas prioritetlərindən biri kimi müəyyən edilmişdi. Bu baxımdan əsas sual yaranır: Türkiyə üçün hərbi əməliyyat nə üçün zəruri idi? Türkiyə hökumətinin rəsmi açıqlamasına görə, məqsəd "Suriya Demokratik Qüvvələri"nə qarşı əməliyyat aparmaq və Suriya sərhədi boyunca 480 km uzunluğunda, 32 km dərinlikdə təh-

lükəsizlik zolağı yaratmaq idi. Bu zonanın formalaşdırılması ölkənin milli maraqları, sərhəd təhlükəsizliyi və regional sabitlik baxımından zəruri hesab edilirdi.

2012-ci ilin iyun ayında Suriya silahlı qüvvələrinin Türkiyəyə məxsus qırıcı təyyarəni vuraraq endirməsi nəticəsində Suriya–Türkiyə münasibətlərində gərginlik əhəmiyyətli dərəcədə artmışdır. Həmçinin, həmin ilin oktyabr ayında sərhəddə baş verən toqquşmalar iki ölkə arasındakı münasibətləri daha da mürəkkəbləşdirmişdir (9, 20, 59). Lakin 2015-ci il iyulun 23-də Türkiyənin 60 nəfərlik elita Xüsusi Hazırlıqlı Qüvvələr (Özel Kuvvetler Komutanlığı – ÖKK) əməliyyat qrupu Suriya–Türkiyə sərhədindən 9 kilometr məsafədə yerləşən Suriya ərazisindəki Əlibəyli-Ayyasə kəndinə daxil olaraq onu İŞİD silahlılarından azad etmişdir (1). Məlumata görə, bir saatdan artıq davam edən əməliyyat zamanı bir çox İŞİD döyüşçüsü məhv edilmişdir (10, 63).

2015-ci il iyulun 20-də Türkiyənin Suriyaya yaxın Suruç şəhərində baş vermiş terror aktında 32 nəfər həyatını itirmişdir. İyulun 23-də Suriyadan gəlmiş İŞİD döyüşçüləri Türkiyə sərhədçilərinə hücum etmişdir. İyulun 24-də Türkiyə Təhlükəsizlik Şurasının iclasında Suriyadakı İŞİD mövqelərinin bombardman edilməsi barədə qərar qəbul edilmişdir (73). Eyni gün, Türkiyə və ABŞ prezidentləri İŞİD-ə qarşı mübarizə məqsədilə İncirlik bazasından istifadə edilməsinə razılıq vermiş və 28 avqust 2015-ci ildən etibarən Türkiyənin koalisiya hava əməliyyatlarında fəal iştirakı təmin olunmuşdur (3).

2016-cı il avqustun 24-də Türkiyə "Fərat qalxanı" əməliyyatının başlanmasını elan etmiş, bölgədə yaşayan mülki əhalinin zərər görməməsi üçün bütün zəruri tədbirlərin görüldüyünü əsas gətirərək Suriyaya birbaşa hərbi müdaxiləni həyata keçirmiş və İraq və Şam bölgəsində fəaliyyət göstərən "İslam Dövləti" (İŞİD) təşkilatını hədəf almışdır. Əməliyyatın əsas məqsədi Türkiyə sərhədindən Əl-Bəb şəhərinə qədər təhlükəsiz və etibarlı koridorun yaradılması olmuşdur (21). "Fərat qalxanı" əməliyyatı 2017-ci il martın 29-da uğurla başa çatmışdır (60). Bu əməliyyat yalnız İŞİD-in bölgədən çıxarılmasına xidmət etməmiş, həm də PKK, PYD və YPG qruplarının Kobani ilə Afrini birləşdirərək Türkiyə sərhədində "terror dəhlizi" yaratmaq riskini aradan qaldırmışdır.

2019-cu il sentyabrın 9-da Türkiyə bölgədə terrora qarşı təhlükəsizlik tədbirlərini gücləndirmək məqsədilə "Barış Pınarı" adı altında hərbi əməliyyatlara başlayacağını elan etmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bununla bağlı bildirib: "Türkiyə Silahlı Qüvvələri Suriya Milli Ordusu ilə birlikdə Suriya şimalındakı PKK, YPG və DAEŞ (İŞİD) terror təşkilatlarına qarşı 'Barış Pınarı' əməliyyatına başlamışdır. Məqsədimiz – ölkəmizə qarşı mövcud terror təhdidini aradan qaldırmaq, yaradılacaq təhlükəsizlik koridoru vasitəsilə suriyalı qaçqınların öz vətənlərinə qayıtmasını təmin etmək və Suriya ərazisinin bütövlüyünü qoruyaraq bölgə əhalisini terror zülmündən azad etməkdir" (8).

2019-cu il oktyabrın 22-də Rusiya və Türkiyə prezidentlərinin Soçi görüşündən sonra Suriya məsələsi üzrə 10 maddədən ibarət tarixi memorandum imzalanmışdır. Memorandumda qeyd olunur:

1. Hər iki tərəf Suriya siyasi birliyi və ərazi bütövlüyünü, eləcə də Türkiyənin milli təhlükəsizliyini təmin etmək üzrə öhdəliklərini təsdiqləyir;

2. Terrorizmin bütün formalarına qarşı mübarizə aparmaq və Suriyadakı separatizm hərəkatlarının qarşısını almaqda qətiyyətlilik xüsusi vurğulanır;

3. Tel Abyad və Ras Al Ayn daxil olmaqla 32 km məsafədə yerləşən "Sülh mənbəyi" əməliyyatı zonasındakı status-kvo qorunur;

4. Hər iki tərəf "Adana sazişi"nin əhəmiyyətini təsdiqləyir və Rusiya müasir şəraitdə "Adana sazişi"nin icrasına öz töhfəsini verir (46).

2014-cü ilin oktyabr ayının əvvəlində Avstraliya Baş naziri Toni Abbott hökumətin İŞİD-ə qarşı hava zərbələri üçün İraqa döyüş təyyarələri göndərdiyini təsdiqləmişdir (11). Avstraliya aviasiyası Suriyanın şimalındakı Kobani şəhərində baş verən döyüşlərdə kürd qüvvələrini dəstəkləmişdir (7). 2014-cü ilin sentyabr ortalarında Fransua Ollandın siyasi bəyanatından sonra Fransa hərbi qüvvələri İŞİD-ə qarşı mübarizə aparan koalisiyaya qoşulmuşdur (38). 2015-ci il dekabrın 4-də Almaniya Bundestaqı koalisiya qüvvələrinə dəstək məqsədilə Almaniya hava qüvvələri və 1200 Bundesver əsgərinin göndərilməsini təsdiqləmişdir. Almaniya hava qüvvələri 16 dekabrda islamçı qruplara qarşı hava zərbələri həyata keçirmişdir (69). 2015-ci il dekabrın 3-də Böyük Britaniya Hava Qüvvələri Suriyadakı İŞİD mövqelərinə qarşı ilk hava zərbələrini endirmişdir (51). 2017-ci il mayın 25-də NATO-nun Brüssel sammitində alyans qüvvələri İŞİD-ə qarşı birgə koalisiyaya qoşulmaq qərarı qəbul etmişdir. Lakin

bu qərar İŞİD-in nəzarətində olan ərazilərdə birbaşa döyüş əməliyyatlarında NATO qüvvələrinin hərbi iştirakı nəzərdə tutmamışdır (72).

Nəticə. Beləliklə, Qlobal Koalisiyanın birgə fəaliyyəti nəticəsində 2017-ci ilin dekabr ayına qədər İŞİD-in bölgədəki mövqeləri əhəmiyyətli dərəcədə zəifləyərək onların nəzarəti demək olar ki, tamamilə aradan qaldırılmışdır. Lakin İŞİD-in latent hüceyrələri hələ də fəaliyyətini digər formalarda davam etdirir ki, bu da onların regional təhlükəsizlik və sabitliyə təhdidini tamamilə aradan qaldırmadığını göstərir. Bu baxımdan, beynəlxalq terrorizmə qarşı Qlobal Koalisiyanın yaradılması və fəaliyyət göstərməsi təkcə regional deyil, həm də qlobal təhlükəsizliyin təmin edilməsi baxımından maddi-texniki və hərbi-siyasi əhəmiyyət kəsb edir.

Belə bir koalisiyada dövlətlərarası qarşılıqlı koordinasiya və strateji əməkdaşlığın mövcudluğu, o cümlədən hərbi resursların birləşdirilməsi, kəşfiyyat məlumatlarının mübadiləsi və əməliyyat planlaşdırılmasının əlaqələndirilməsi terrorizmə qarşı mübarizənin effektivliyini əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda, beynəlxalq ictimaiyyətin belə səyləri terror qruplarının yalnız regional deyil, həm də qlobal şəbəkələrini məhdudlaşdırmağa, onların maliyyə və logistika imkanlarını azaltmağa xidmət edir.

Bundan əlavə, koalisiyanın fəaliyyətində regional sabitliyi təmin etmək, vətəndaş təhlükəsizliyini gücləndirmək və ekstremizmin sosial, siyasi və iqtisadi səbəblərini azaltmağa yönəlmiş kompleks yanaşmanın rolu da böyükdür. Buna görə, beynəlxalq ictimaiyyətin birgə səyləri, koalisiyalı mexanizmlərin inkişafı və onların strateji effektivliyi bu gün də aktual və vacib hesab olunur. Bu isə terrorizmə qarşı mübarizədə vahid, əlaqələndirilmiş və inteqrasiya olunmuş yanaşmanın davamlılığını təmin etməyin əsas şərti kimi özünü göstərir.

ƏDƏBİYYAT

1. “Bomba İddia! 60 Bordo Bereli, IŞİD'in Kontrolündeki Köye Girdi”. Haberler.com. 23 July 2015. / https://www.haberler.com/60-bordo-bereli-isid-in-kontrolundeki-koye-girdi-7535185-haberi/ [01.11.2025].
2. 10 главных событий российской кампании в Сирии в фотографиях. / https://www.bbc.com/russian/features-41419918 [01.11.2025].
3. 144 hedef vuruldu 1.172 IŞİD’li öldü. Milliyet. / http://www.milliyet.com.tr/gundem/2-144-hedef-vuruldu-1-172-isid-li-oldu-2240183 [01.11.2025].
4. 60 Bordo Bereli o köye girdi iddiası. 23 July 2015. / http://www.gazetevatan.com/60-bordo-bereli-o-koye-girdi-iddiasi-834687-gundem/ [01.11.2025].
5. About CIS ATC / https://www.eng.cisatc.org/132 [01.11.2025].
6. Ansari A., Tawfeeq, M. "Airstrikes in Syria kill scores of civilians". CNN. Retrieved 26 September 2016 / https://edition.cnn.com/2016/06/26/world/syria-violence-unicef/index.htmlc [01.11.2025].
7. Australian air strikes in Iraq kill Isis fighters on 'at least two' occasions https://www.theguardian.com/world/2014/oct/17/australian-air-strikes-kill-isis-fighters-on-at-least-two-occasions [01.11.2025].
8. Barış Pınarı Harekatı. / http://turkeyhaberleri.com/baris-pinari-harekati-12136h.html [01.11.2025].
9. Blair, D., Henderson, B. Syria “shoots down Turkish fighter jet” The Telegraph. 22 Jun 2012 / https://www.telegraph.co.uk/news/worldnews/middleeast/syria/9349777/Syria-shoots-down-Turkish-fighter-jet.html [01.11.2025].
10. Bordo bereliler, Suriye sınırında. / http://www.cumhuriyet.com.tr/video/video/328263/bordo-bereliler-suriye-sinirinda.html [01.11.2025].
11. Cabinet approves Australian airstrikes in Iraq / https://www.theaustralian.com.au/national-affairs/cabinet-approves-australian-airstrikes-in-iraq/news-story/a4dc42e96f2b8b7b6f384259d3710c02 [01.11.2025].
12. Cooper, H. Obama Enlists 9 Allies to Help in the Battle Against ISIS // https://www.nytimes.com/2014/09/06/world/middleeast/us-and-allies-form-coalition-against-isis.html [01.11.2025].

13. Council of Europe Convention on the Prevention of Terrorism. Warsaw, 16 May 2005 / https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/273291/6901.pdf [01.11.2025].
14. Czuperski, M., Herbst, J., Higgins, E., Hof, F., and Nimmo, B. Distract Deceive Destroy Putin at War in Syria. / https://publications.atlanticcouncil.org/distract-deceive-destroy/assets/download/ddd-report.pdf [01.11.2025].
15. Eremenko A., Siemaszko, C. Vladimir Putin Orders Russian Military Pullout From Syria. NBC News. March 14, 2016. / https://www.nbcnews.com/news/world/vladimir-putin-orders-russian-military-pullout-syria-n538041 [01.11.2025].
16. G8 Counter-Terrorism Cooperation since September 11 / https://japan.kantei.go.jp/koizumispeech/2002/06/26g8_1tero_e.html [01.11.2025].
17. G8 Summit Declaration on Counter–Terrorism 16 July 2006 / http://en.kremlin.ru/supplement/3723/print [01.11.2025].
18. Gady, F-S. India Makes $800 Million Advance Payment for Russian S-400 Air Defense Systems. The Diplomat. November 20, 2019 / https://thediplomat.com/2019/11/india-makes-800-million-advance-payment-for-russian-s-400-air-defense-systems/ [01.11.2025].
19. Harress, Ch. (11 January 2016). "Russia Airstrikes In Syria 2016: Thousands Of ISIS Targets Hit by Moscow's Jets This Year". International Business Times. Retrieved 24 September 2016 / https://www.ibtimes.com/russia-airstrikes-syria-2016-thousands-isis-targets-hit-moscows-jets-year-2259339 [01.11.2025].
20. Head, J. Turkey watches as Syria's rebellion encroaches. BBC News, on the Turkish-Syrian border. 24 March 2012 / https://www.bbc.com/news/world-middle-east-17483891v
21. Heller, S. "Turkey's "Turkey First" Syria Policy", The Century Foundation, Apr. 2017, / https://tcf.org/content/report/turkeys-turkey-first-syria-policy/?session=1 [01.11.2025].
22. https://www.interpol.int/en/Who-we-are/Legal-framework/Membership-of-INTERPOL
23. Iraq declares victory in its war against ISIS; CBS News; 9 December 2017 / https://www.cbsnews.com/news/iraq-declares-victory-in-its-war-against-isis/ [01.11.2025].
24. Iraq declares war with Islamic State is over; BBC News; 9 December 2017 / https://www.bbc.com/news/world-middle-east-42291985 [01.11.2025].
25. IS conflict: Turkey-backed Syrian rebels take Jarablus. BBC. 24 August 2016. // https://www.bbc.com/news/world-europe-37171995 [01.11.2025].
26. ISIL defeated in final Syria victory: SDF. 23 Mar 2019. / https://www.aljazeera.com/news/2019/03/isil-defeated-syria-sdf-announces-final-victory-190323061233685.html [01.11.2025].
27. Kaya S. "Interpol, Europol ve Uluslararası Terörizm", Güvenlik Stratejileri Dergisi , (İstanbul: Harp Akademileri Komutanlığı Stratejik Araştırmalar Enstitüsü, 2005), Yıl 1, Sayı 2. s.31-50. s.33.
28. Lister, Ch. Not Just Iraq: The Islamic State Is Also on the March in Syria. Dec 06, 2017 / https://www.huffpost.com/entry/not-just-iraq-the-islamic_b_5658048 [01.11.2025].
29. Luhn, A. Vladimir Putin announces Russian withdrawal from Syria during visit to airbase. 11 DECEMBER 2017. / https://www.telegraph.co.uk/news/2017/12/11/vladimir-putin-announces-russian-withdrawal-syria-visit-airbase/ [01.11.2025].
30. Marifli A. Büyük devletlerin Orta Doğu siyasetinde terör kavramından yararlanma – Uluslararası II.Ortadoğu Sempozyumu. Ortadoğuda Devlet, Detlet-Dışı Aktörler ve Demokrasi 4-7 Mayıs 2016, Kırıkkale. s.1041-1050. s.1045.
31. McKay, H. Trump, Mattis turn military loose on ISIS, leaving terror caliphate in tatters; FOX News; December 8, 2017 / https://www.foxnews.com/world/trump-mattis-turn-military-loose-on-isis-leaving-terror-caliphate-in-tatters [01.11.2025].
32. Measures to Eliminate International Terrorism - Report of the Secretary-General / https://www.refworld.org/docid/3ae6b3250.html [01.11.2025].
33. Myre, G. "U.S., Russia Working On A Plan To Coordinate Bombing In Syria". NPR. 14 July 2016. Retrieved 14 July 2016 / https://www.npr.org/sections/parallels/2016/07/14/486005012/u-s-russia-working-on-a-plan-to-coordinate-bombing-in-syria [01.11.2025].

34. NAVO veroordeelt unaniem ‘barbaarse daad’ van Islamitische Staat’ [NATO unanimously condemns ‘barbaric act’]. nrc.nl, 5 September 2014. Retrieved 13 June 2015. / https://www.nrc.nl/nieuws/2014/09/05/navo-veroordeelt-unaniem-barbaarse-daad-van-islamitische-staat-a1422620 [01.11.2025].
35. Nicks, D. U.S. Forms Anti-ISIS Coalition at NATO Summit. Time, 5 September 2014. Retrieved 14 June 2015. / https://time.com/3273185/isis-us-nato/ [01.11.2025].
36. Obama outlines plan to target IS fighters. 11 Sept 2014 // https://www.aljazeera.com/news/middleeast/2014/09/obama-strike-wherever-it-exists-201491022393560l193.html [01.11.2025].
37. Perera, R. Declaration on Measures to Eliminate International Terrorism, 1994, and the 1996 Supplementary Declaration thereto / https://legal.un.org/avl/ha/dot/dot.html [01.11.2025].
38. Press conference by President Francois Hollande of France, 24 Sep 2014 / http://webtv.un.org/meetings-events/security-council/watchbr%20/watch/francois-hollande-press-conference-24-september-2014/3804251048001/?term=&lan=french [01.11.2025].
39. Putin announces Russian troop withdrawal from Syria during visit; BBC News; 10 December 2017; / https://www.bbc.com/news/world-middle-east-42307365 [01.11.2025].
40. Report: ISIL losing in Iraq, Syria; gaining in Libya. Al Jazeera. 2 June 2016. Retrieved 26 September 2016 / https://www.aljazeera.com/news/2016/06/report-isil-gaining-ground-libya-160601045240672.html [01.11.2025].
41. Rogin, J. (13 July 2016). "Obama's Syria plan teams up American and Russian forces". The Washington Post. Retrieved 13 July 2016 / https://www.washingtonpost.com/opinions/global-opinions/obamas-syria-plan-teams-up-american-and-russian-forces/2016/07/13/8d7777cc-4935-11e6-acbc-4d4870a079da_story.html [01.11.2025].
42. Rumer, E., Weiss. S.A. Is Russia trying to replace The United States as The Middle East’s main power broker? A Brief Guide to Russia’s Return to the Middle East / https://carnegieendowment.org/2019/10/24/brief-guide-to-russia-s-return-to-middle-east-pub-80134 [01.11.2025].
43. Russia Working On A Plan To Coordinate Bombing In Syria”. NPR. 14 July 2016. Retrieved 14 July 2016 / https://www.npr.org/sections/parallels/2016/07/14/486005012/u-s-russia-working-on-a-plan-to-coordinate-bombing-in-syria [01.11.2025].
44. Russia, Iran, Iraq & Syria setting up 'joint information center' to coordinate anti-ISIS operations. RT English. 26 September 2015. Retrieved 27 October 2015. / https://www.rt.com/news/316592-russia-syria-islamic-state/ [01.11.2025].
45. Russia, Jordan agree on military coordination on Syria. Reuters. October 23, 2015 / https://www.reuters.com/article/us-mideast-crisis-syria-russia-jordan/russia-jordan-agree-on-military-coordination-on-syria-idUSKCN0SH1ER20151023 [01.11.2025].
46. Russia, Turkey adopt memorandum on northern Syria situation after Putin-Erdogan talks. Xinhua. 2019-10-23 / http://www.xinhuanet.com/english/2019-10/23/c_138494544.htm [01.11.2025].
47. Russia. Increased Russian Activity in the Mediterranean. The Heritage Foundation (Oct 30, 2019) / https://www.heritage.org/military-strength/assessing-threats-us-vital-interests/russia [01.11.2025].
48. SAARC Regional Convention on Suppression of Terrorism / https://www.refworld.org/docid/3dd8ab3a4.html [01.11.2025].
49. Seligman, L., Groll, E., Gramer, R. How Turkey and Russia Carved Up Northern Syria. October 23, 2019 / https://foreignpolicy.com/2019/10/23/turkey-russia-northern-syria-erdogan-putin/ [01.11.2025].
50. Shanghai Convention on Combating Terrorism, Separatism and Extremism / https://www.refworld.org/docid/49f5d9f92.html [01.11.2025].
51. Syria air strikes: RAF Tornado jets carry out bombing / http://www.bbc.com/news/uk-34992032 [01.11.2025].
52. Syrian and Turkish armies in deadly border clash. Beirut (AFP) / https://www.france24.com/en/20191029-syrian-and-turkish-armies-in-deadly-border-clash [01.11.2025].

53. Syrian rebels to Russia: Stop bombing us. Reuters. 26 October 2015. Retrieved 9 December 2015 / https://www.reuters.com/article/us-mideast-crisis-syria-idUSKCN0SK0QR20151026; https://www.aljazeera.com/news/middleeast/2014/09/obama-strike-wherever-it-exists-201491022393560119 3.html [01.11.2025].
54. Terörizmin tarihi Antikçağdan IŞİD'E. Editörler. Gerard Chaliand & Arnaud Blin. (Çeviren: Bülent Tanatar). İstanbul, Nora Kitap, 2016, 741s. s.526-530.
55. The New York Times / https://www.nytimes.com/2014/09/06/world/middleeast/us-and-allies-form-coalition-against-isis.html [01.11.2025].
56. Treaty on Cooperation among the States Members of the Commonwealth of Independent States in Combating Terrorism, 1999 / https://treaties.un.org/doc/db/Terrorism/csi-english.pdf [01.11.2025].
57. Trump Said to Favor Leaving a Few Hundred Troops in Eastern Syria. The New York Times. / https://www.nytimes.com/2019/10/20/world/middleeast/trump-troops-syria-turkey.html [01.11.2025].
58. Tsvetkova, M. "Israel, Russia to coordinate military action on Syria: Netanyahu". Reuters. Retrieved 24 November 2015. / https://www.reuters.com/article/us-mideast-crisis-russia-israel/israel-russia-to-coordinate-military-action-on-syria-netanyahu-idUSKCN0RL10K20150921#QpALeMpdyMObwDI7.97 [01.11.2025].
59. Turkey downs Syria military jet "in airspace violation" BBC. 23 March 2014. / https://www.bbc.com/news/world-middle-east-26706417 [01.11.2025].
60. Turkey's Foreign Policy Towards Syria / https://www.kas.de/c/document_library/get_file?uuid=aa542008-7190-09ae-4c88-da15ce1bb376&groupId=252038 [01.11.2025].
61. UN Global Counter-Terrorism Strategy. Adopted by consensus in 2006 / https://www.un.org/counterterrorism/ctitf/en/un-global-counter-terrorism-strategy [01.11.2025].
62. Wright, R. Trump's Baffling Plan to Pillage Syria's Oil. October 30, 2019 / https://www.newyorker.com/news/our-columnists/trumps-baffling-plan-to-pillage-syrias-oil [01.11.2025].
63. Yeginsu, C., Cooper, H. U.S. Jets to Use Turkish Bases in War on ISIS. The New York Times. July 23, 2015. / https://www.nytimes.com/2015/07/24/world/europe/turkey-isis-us-airstrikes-syria.html [01.11.2025].
64. Будаева С. Дегтярева Н. Международное сотрудничество в области борьбы с терроризмом. // Вестник ЗабГУ № 05 (108) 2014, s.65-71, c.66.
65. Военно-техническое сотрудничество и борьба с терроризмом в центре внимания России и Индии (26 октября 2016) / https://www.1tv.ru/news/2016-10-26/312795-voenno_tehnicheskoe_sotrudnichestvo_i_borba_s_terrorizmom_v_tsentre_vnimaniya_rossii_i_indii [01.11.2025].
66. Военный эксперт: США меняют антитеррористический фронт в Азии / https://nsn.fm/in-the-world/in-the-world-voennyy-ekspert-ssha-menyayut-antiterroristicheskiy-front-v-azii [01.11.2025].
67. Конвенция Совета Европы об отмывании, выявлении, изъятии и конфискации доходов от преступной деятельности и о финансировании терроризма. Варшава, 16 мая 2005 года / http://docs.cntd.ru/document/901944951 [01.11.2025].
68. Контртеррористический комитет и его Исполнительный директорат / https://www.un.org/sc/ctc/wp-content/uploads/2015/09/CTED-press-kit-2016-RUSSIAN.pdf [01.11.2025].
69. Немецкая авиация впервые приняла участие в военной операции коалиции в Сирии. 16 Декабрь 2015. / http://www.trust.ua/news/119798-nemeckaya-aviaciya-vpervye-prinyala-uchastie-v-voennoj-operacii-koalicii-v-sirii.html [01.11.2025].
70. Пентагон объявил об освобождении почти всей территории Ирака от боевиков / https://rossaprimavera.ru/news/8d7799a6 [01.11.2025].
71. Протокол о внесении изменений в Европейскую конвенцию о пресечении терроризма / https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168008373b [01.11.2025].

72. Страны НАТО присоединились к коалиции против ИГ и приняли план по увеличению бюджета / http://tass.ru/mezhdunarodnaya-panorama/4283859 [01.11.2025].
73. Турция начала бомбардировку позиций ИГИЛ в Сирии / http://therussiantimes.com/news/15978.html [01.11.2025].
74. Ясин, Х. Сколько потратил «русский медведь», чтобы предотвратить падение режима Башара Асада? (14.03.2018) / https://inosmi.ru/politic/20180314/241690519.html [01.11.2025].

АКИФ МАРИФЛИ
Доктор философии (PhD) по истории

ГЛОБАЛЬНЫЕ РАМКИ АНТИТЕРРОРИСТИЧЕСКОГО СОТРУДНИЧЕСТВА: ДИНАМИКА РАЗВИТИЯ И ОСНОВНЫЕ ФУНКЦИИ КОАЛИЦИОННЫХ ИНСТИТУТОВ

Статья посвящена анализу терроризма и деятельности террористических группировок на Ближнем Востоке, подчёркивая необходимость формирования Глобальной коалиции в стратегически важном регионе. Отмечается, что терроризм представляет транснациональную угрозу, затрагивающую все государства. Особое внимание уделено международному сотрудничеству и межгосударственным коалиционным механизмам против террористических актов. Рассматривается роль возглавляемой США Глобальной коалиции в контексте событий в Сирии и Ираке, а также взаимодействие западных стран с ключевыми региональными акторами — Россией и Турцией. Несмотря на существенное ослабление позиций ИГИЛ и утрату контроля над значительной частью территорий, продолжают действовать скрытые ячейки группировки. Это подтверждает военно-политическую и логистическую необходимость поддержания наднациональной коалиции для борьбы с международным терроризмом.

Ключевые слова: террор, коалиция, организация, международный, антитеррор, разведка, экстремизм.

AKIF MARIFLI
Doctor of Philosophy (PhD) in History

THE GLOBAL FRAMEWORK OF COUNTERTERRORISM COOPERATION: DEVELOPMENT DYNAMICS AND KEY FUNCTIONS OF COALITION INSTITUTIONS

The article is devoted to the analysis of terrorism and the activities of terrorist groups in the Middle East, emphasizing the necessity of forming a Global Coalition in this strategically important region. It is noted that terrorism represents a transnational threat affecting all states. Particular attention is given to international cooperation and intergovernmental coalition mechanisms to counter terrorist acts. The role of the U.S.-led Global Coalition in the context of events in Syria and Iraq is examined, as well as the interaction of Western countries with key regional actors, such as Russia and Turkey. Despite the significant weakening of ISIS positions and the loss of control over a large portion of previously held territories, the group's covert cells continue to operate. This underscores the military-political and logistical necessity of maintaining a supranational coalition to combat international terrorism.

Keywords: terror, coalition, organization, international, anti-terror, intelligence, extremism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: s.e.d. Elman Nəsirov, s.e.d. Adil Mirabdullayev.